# Fransanın Cənubi Qafqaza gələn yolları bağlanıb

Azərbaycan-Fransa siyasi münasibətləri gərginləşməkdə davam edir. Fransanın ölkəmizə qarşı hiyləgər siyasətini, qərəzli hücumlarını, nəzakətli, çevik diplomatik manevrlərlə bloklayan rəsmi Bakı bu dəfə fərqli üsuldan istifadə etdi. Parislə onun başa düşəcəyi dil ilə danışdı.

Rəsmi Bakı bu ölkənin Cənubi Qafqazda, eləcə də Azərbaycanda fəaliyyət göstərən kəşfiyyat şəbəkəsini ifşa etməklə rəsmi Parisi seytnota salmış oldu. Bakı bununla dünyanın geopolitik xəritəsində yerini və rolunu dəqiq müəyyənləşdirə bilməyən Makron hökumətinə yerini göstərmiş oldu. Demək olar ki, bununla da Azərbaycan əslində "bir gülləyə iki dovşan" vurmuş oldu. Həm rəsmi Parisə "mənim işimə qarışa biləcək gücdə deyilsən", - dedi, həm də Fransanın vədlərinə aldanan Ermənistana səhv yol ilə getdiyini başa saldı.

2020-ci ilin Vətən müharibəsindən sonra Ermənistanı silahlandırıb yenidən qüvvələr nisbətini dəyişməyə çalışan Parisin əsas hədəfi Ermənistan vasitəsi ilə Cənubi Qafqaz siyasətinə girmək idi. Qərbin maliyyə dəstəyi ilə hakimiyyətə sahiblənən naşı Nikol Paşinyan Fransanın şirnikləşdirici vədlərinə inanaraq Ermənistanı uçurumun kənarına qədər apara bilib. Beynəlxalq aləmə özünü Ermənistanın vəkili kimi təqdim edən Emmanuel Makronun bu ölkəni geopolitik intriqaların qurbanına çevirdiyi göz qabağındadır.

Elə rəsmi Parisin Azərbaycana qarşı qərəzinin əsas səbəbi də ölkəmizi öz maraqları naminə geosiyasi intriqalara cəlb edə bilməməsi olub. Makron hökuməti elə hesab edirdi ki, Rusiya-Ukrayna müharibəsindən istifadə edərək indiki məqamda Ermənistanın vasitəsilə Rusiyanı Cənubi Qafqazdan da sıxışdırıb çıxarmağa nail ola biləcək. Fransanın vədlərinə uyan Ermənistanın artıq belə bir intriqanın qurbanı olduğunu görməmək mümkün deyil.

Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi: "Azərbaycan müstəqil xarici və daxili siyasətə malik ölkədir və bu siyasəti milli maraqlara əsaslanaraq yürüdür. Əsas amillərdən biri ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməməklə dövləti mənfi xarici təsirdən və daxili işlərə müdaxilədən qorumaqdır. Beləliklə, biz bu riskləri azaltmağı uğurla bacardıq. Bu səbəbdən bu gün Azərbaycan böyük beynəlxalq potensiala, müsbət beynəlxalq reputasiyaya malik ölkədir".

Bu gün regionun geopolitik mənzərəsini belə təsvir etmək olar: Rusiya ilə münasibətləri getdikcə daha da gərginləşən Ermənistan faktiki olaraq olan-qalan müstəqilliyini də tamamilə itirmək üzrədir. Ermənistanın əsas müdafiəçisi olan Fransanın özünün beynəlxalq nüfuzu o dərəcədə zədələnib ki, indiki vəziyyətdə Parisin kimə isə kömək edə biləcəyinə inanmaq siyasi naşılıq olar. Azərbaycanın isə regionun lider dövləti olduğunu bütün dünya dövlətləri təsdiq edir. Hətta bu gün ölkələrimiz arasında olan keçmiş yaxşı tarixi ənənələrin üstündən ciddcəhdlə xətt çəkməyə çalışan, ölkəmizlə münasibətləri gərginləşdirən Fransa da dərk etməkdədir.

Birmənalı olaraq Fransanın Cənubi Qafqaza girmək planının tamamilə uğursuzluqla nəticələndiyini qeyd edə bilərik. 30 illik münaqişə dövründə "vasitəçi"lik missiyası həyata keçirən Parisin son illər açıq surətdə Ermənistanı müdafiə etməsi və ölkəmizə qarşı haqsız, qərəzli mövqe tutması bu ölkənin Cənubi Qafqaz siyasətinə qoşulmaq arzusunu minimuma endirib.

Azərbaycan Prezidenti İlham Əliyevin apardığı müstəqil siyasət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu güclənməkdə, ölkəmizlə əməkdaşlıq etmək istəyən və buna can atan dövlətlərin sayı gündən-günə artmaqdadır. Azərbaycanda enerji sahəsinin inkişafına nəzər salsaq görərik ki, burada geniş beynəlxalq təmsilçilik var. Avropanın əksər dövlətləri ölkəmizlə ciddi iqtisadi əməkdaşlıq edir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri Azərbaycandan keçir.

Azərbaycanın artan nüfuzu, çevik diplomatik manevrləri, Fransanın müstəmləkəçilik siyasətini ifşa etməyi bacarması, Afrika ölkələrində törətdiyi soyqırımları ciddi müzakirə mövzusuna çevirə bilməsi rəsmi Parisi daha da aqressivləşdirib.

Paris səhvini anlayıb düzəltmək əvəzinə münasibətləri daha da gərginləşdirmək mövqeyini seçib. Azərbaycanın inkarolunmaz faktlarla, dəlillərlə bu ölkənin agentura şəbəkəsini ifşa etməsinə cavab olaraq Azərbaycan səfirliyinin iki əməkdaşının heç bir dəlil-sübut olmadan "arzuolunmaz şəxs" elan etməsi bu ölkənin acizliyini sübut edir. Fransanın "özünümüdafə" məqsədi ilə ölkəmizə qarşı etdiyi hücumu, qapının arxasından vurulan "qola" bənzətmək olar.

Emmanuel Makronun səhv siyasəti Fransanın əsas xammal mənbəyi olan Afrika ölkələrinə nəzarəti itirməsini intensivləşdirib. Afrikada itirdiklərini Cənubi Qafqaz və Orta Asiya regionlarında kompensasiya etmək arzusu isə heç də real görünmür. Fransa Prezidenti anlamalı idi ki, sözün bütün mənalarında Cənubi Qafqaza gələn yollar Azərbaycandan keçir. Azərbaycanın yolu isə haqq yoludur. Haqsızlara bu yolda yer yoxdur.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-31 dekabr (№288).- S.12.